# İbtidai sinif müəllimlərinin pedaqoji peşə mədəniyyətinin formalaşdırılmasının yol və vasitələri

**Könül Fikrət qızı Qüdrətli**
*Bakı Qızlar Universiteti*
**E-mail:** k.gudratli@gmail.com

**Rəyçilər:** p.ü.e.d. prof. H.H. Əhmədov,
p.ü.e.f. dos. P.M. Həsənova

**Açar sözlər:** müəllim, şəxsiyyət, məqsəd, keyfiyyət, peşə, mədəniyyət
**Ключевые слова:** педагог, личность, цель, качество, профессия, культура
**Key words:** teacher, personality, goal, quality, professional, culture

Müəllimlik cəmiyyətin ən şərəfli və ən hörmətli peşəsidir. Müəllim kadrları bütün dövrlərdə hər zaman böyük hörmətə layiq görülmüşlər. Çünki, insanlar yalnız müəllimlərin vasitəsilə dünyanı dərk edir, ətrafda baş verənləri qiymətləndirə bilir, yeni məlumatlar alırlar. Gənc nəsil yaşlı nəslin əldə etdiyi bilik və təcrübəyə yiyələnməsəydi, nə cəmiyyət mövcud olardı, nə də inkişaf edərdi. Belə olmasaydı, gənc nəsil hər şeyi yenidən başlayar, cəmiyyət yerində sayardı, elm inkişaf etməzdi. Müasir ibtidai məktəb yüksək professional keyfiyyətli müəllimlər gözləyir. Bütün dünya arzu edir ki, ibtidai təlim və tərbiyəyə yalnız ən savadlı, ən istedadlı, ən məsuliyyətli müəllimlər buraxılsın. Cəmiyyətin müxtəlif inkişaf mərhələlərində məktəbin qarşısına qoyulan vəzifələr dəyişmişdir. Müəllim həm tərbiyə etmiş, həm də öyrətmişdir.

İnsanın taleyində uşaq yaşı dövrü olduqca əhəmiyyətlidir. Qeyri-peşəkar pedaqoqlar uşağın həyatına start verdikdə, ciddi itkilər baş verir. Əgər məktəbəqədər tərbiyəçi, ibtidai sinif müəllimi səhv edirsə, onun kəsirlərini, vurduğu ziyani orta və yuxarı siniflərdə düzəltmək mümkün deyil. Hər bir pedaqoq və tələbə (gələcək müəllim) bir həqiqəti möhkəm anlamalı və dərk etməlidir ki, məktəbdə ən qiymətli şey şagirdlər və pedaqoqlardır. Uşaq tərbiyənin vasitəsi deyil, məqsədidir. Buna görə də şagirdi məktəbə uyğunlaşdırmaq yox, əksinə məktəbi, müəllimləri şagirdə uyğunlaşdırmaq lazımdır. İbtidai sinif müəllimi öz işinin ustası olmaq üçün pedaqogikanı dərindən bilməlidir, əvvəl peşəkarcasına düşünməyi, sonra isə fəaliyyət göstərməyi öyrənməlidir.

İbtidai sinif müəllimi xüsusi müəllimdir. O, uşaq psixikasının yaranması və formalaşdırılmasında uşaqlarla yaşlılar aləmi arasında vasitəçidir; uşağa bilik, bacarıq verir, ona insan olmağı öyrədir. İbtidai sinif müəllimlərinin əməyi öz mahiyyətinə, məzmununa görə heç kəslə müqayisə oluna bilməz, çünki onun əməyinin nəticəsi insandır. Ona - ən bilikli, ən məsuliyyətli ən başlıca insana cəmiyyət an qiymətli sərvətini öz uşağını, öz ölkəsinin vətəndaşının taleyini, gələcəyini etibar edir Müəllim masası arxasında dayanan şəxs yetişməkdə olan nəslin-uşağın taleyi üçün cavabdehdir. Müəllimin bugünkü nəticəsindən cəmiyyətin sabahı asılıdır. Bu gün müəllimin nəticəsi necədirsə, cəmiyyətin sabahı elə olacaqdır.

Zamanın sürətlə dəyişən dəyərlər müstəvisində müəllimlik peşəsinin müasir pedaqoji meyarlara uyğunlaşması qaçılmazdır. Fəal, yaradıcı müəllim həyata keçirilməkdə olan təhsil konsepsiyasının mahiyyətini anlamalı, müasir dərsə verilən tələbləri, onun strukturunu dərindən mənimsəməli və təlim texnologiyalarına yüksək səviyyədə yiyələnməlidir. müəllimin pedaqoji peşə mədəniyyətinin formalaşdırılması iki formada: tədrisdən ayrılmaqla ixtisasartırma kursları vasitəsilə və tədrisdən ayrılmadan öz üzərində müstəqil işləməklə həyata keçirilə bi-

lir. Əgər birinci forma planauyğun qaydada, əsasən, məcburi şəkildə tətbiq edilirsə, ikinci forma müəllimin mənəvi tələbat və ehtiyacına uyğun olaraq könüllü şəkildə yerinə yetirilir. Müəllimin tədrisdən ayrılmadan pedaqoji peşə mədəniyyətini formalaşdırması müxtəlif yollarla həyata keçirilə bilər ki, bunlardan aşağıdakılar daha səmərəli hesab olunur:

**1) Müstəqil mütaliə yolu ilə;**

Təhsilin yeni prinsiplər (nəticəyönlü, şagirdyönlü, tələbəyönlü, tərbiyəyönlü, inkişafyönlü inteqrativ) əsasında qurulması təlimin məzmununda və təşkili formalarında köklü dəyişikliklər edilməsinə gətirib çıxardı. Odur ki, şagird təfəkkürünü daha intensiv işlətməyə hesablanmış yeni təlim modeli müəllimi daim öz üzərində çalışmağa, axtarıcılığa sövq edir. Müəllim gözlənilən təlim nəticələrini qabaqcadan müəyyənləşdirməklə ən optimal təlim metodlarını tətbiq etmək bacarığına yiyələnməlidir. Bu isə müəllimdən müasir elmi-metodik ədəbiyyatı gündəlik izləməyi, yeni ideyalarla potensial imkanlarını artırmağı tələb edir. Müəllim şagirdlərini fəallaşdırmaq, təlim prosesinə yaradıcı qoşmaq istəyirsə, ilk növbədə özü yaradıcı və yenilikçi olmalıdır. Yaradıcılıq isə daimi mütaliə, düşünmə üzərində qurulur.

**2) İş təcrübəsinin öyrənilməsi yolu ilə.**

Müəllimin peşə hazırlığının yüksəldilməsində nəzəri-metodik biliklərin artırılması ilə yanaşı, qabaqcıl təcrübənin öyrənilməsi də mühüm əhəmiyyət kəsb edir. Danılmaz həqiqətdir ki, Azərbaycan təhsilində aparılan islahatlar inkişaf etmiş dünya ölkələrinin və respublikamızın qabaqcıl məktəblərin iş təcrübəsinə əsaslanmaqla, təlimin təşkili, idarə olunması, məzmununun müəyyənləşdirilməsi və digər mühüm məsələlərlə yanaşı, müəllim hazırlığı problemini də özündə əks etdirir. Müəllimin səriştəli bir mütəxəssis kimi yetişməsində ixtisasartırma kurslarının, treninqlərin, elmi-praktik konfrans və seminarların müstəsna əhəmiyyəti vardır.

XXI əsr informasiya və yenilik dövrdür. Son illər yaxın və uzaq xarici ölkələrdə, respublikamızda nəzəri pedaqogika sahəsində xeyli tədqiqatlar aparılmış və bir sıra maraqlı nəticələr əldə olunmuşdur. Yeni informasiya texnologiyaların tədbiqi, komputer texnologiyalarından istifadənin daha da artması yeni-yeni təlim metodlarının yaranması müəllimlərin pedaqoji fəaliyyətinə də öz təsirini göstərdi. Müasir dövrün tələbləri əsasında dərs keçmək müəllimdən öz pedaqoji fəaliyyətini daim təkmilləşdirmək və yenilikləri izləmək tələb edir. Bütün bunlar müəllimlərin öz pedaqoji mədəniyyətini formalaşdırması üçün yeni yeni yolların və texnologiyaların tətbiqini tələb edir.

Müəllimin pedaqoji peşə mədəniyyəti müəllimin yaradıcı fəaliyyəti ilə sıx surətdə əlaqədardır. Müəllimin öz şagirdləri qarşısında fəaliyyətinə yaradıcı münasibət göstərməsi bir tərəfdən təlim nəticələrinə müsbət təsir göstərirsə, digər tərəfdən müəllimi şagirdlərin gözü qarşısında daha da böyüdür, hörmətli edir. Müəllim pedaqoji fəaliyyətə yaradıcılıqla yanaşdıqda, ona yaradıcı münasibət bəslədikdə bunlar həm onun peşə funksiyasının reallaşmasında, həm də müxtəlif texnoloji əməliyyatların yerinə yetirilməsində yüksək nəticələrə səbəb olur, pedaqoji fəaliyyət dəyər səviyyəsinə yüksəlir. Müəllimin pedaqoji ustalığı, qabiliyyətləri, peşə keyfiyyətləri, bacarığı pedaqoji prosesdə bilavasitə ünsiyyət prosesində meydana çıxır. Bu zaman onun peşə mədəniyyətinin səviyyəsi də aydın görünür.

Müəllim şagirdlərlə necə ünsiyyət qurur, ünsiyyətin hansı üslubundan formasından istifadə edir, şagirdlər arasında ayri seçkiliyə yol verirmi, şagirdlərin inkişafını necə istiqamətləndirir, sinifdə öz işgüzar fəaliyyətini necə qurur, sinfi idarə edə bilirmi və dərs zamani hansı metod və priyomlardan istifadə edir və s. Müəllimin pedaqoji peşə mədəniyyətinin əsas göstəricilərindən biri onun standart metod və vasitələrdən əlavə, yaradıcı priyomlardan, xüsusən də ənənəvi metod və priyomlar səmərə vermədikdə qeyri-standart metodlardan nə dərəcədə, hansı səviyyədə istifadə edə bilməsidir. Pedaqoji peşə mədəniyyəti nə birdən-birə yaranır, nə də

müəllimlik diplomu ilə birgə verilir. Buna inqilabla, yəni birdən-birə nail olmaq da mümkün deyildir. O, müəllimin pedaqoji fəaliyyəti ilə yanaşı gedərək, onun işgüzarlığı, pedaqoji peşəyə olan sevgisi, yaradıcı pedaqoji təfəkkürə malik olması ilə müşayiət olunur.

Müəllimin pedaqoji yaradıcılığına stimul verən belə amillər həm də pedaqoji peşə mədəniyyəti ilə müşayiət olunduqda daha səmərəli nəticələrə səbəb olur. Bu baxımdan müəllimin pedaqoji peşə mədəniyyətinin formalaşmasının aşağıdakı göstəricilərini qeyd etmək olar:

1) Müəllimin pedaqoji peşə mədəniyyətinə dair nəzəri-metodoloji biliklərə malik olması və onun əsaslarına yiyələnməsi. Müəllimin peşə ixtisas biliklərini aid edə bilərik. Müəllim tək öz ixtisası haqqında biliklərlə kifayətlənməli deyil o öz elmi ilə əlaqədar olan fənlər haqqında da zəruri biliklərlə silahlanmalıdır Burada müəllimin etikanı, pedaqogikanı, pedaqogika tarixi, psixologiyanı, pedaqoji psixologiyanı, psixopedaqogikanı, uşaqların yaş xüsusiyyətlərini yaxşı bilməsi, pedaqoji prosesin qanunauyğunluqlarına, prinsiplərinə və metodlarına, həmçinin təhsilin kulturoloji əsaslarına dair biliklərə yiyələnməsi başlıca şərtlərdəndir.

2) Şagird şəxsiyyətinə hörmətlə və humanistcəsinə yanaşmağı müəllimin öz fəaliyyətində nəzərə alması. Müəllimin pedaqoji peşə mədəniyyətini formalaşmasında onun peşə keyfiyyətlərinin rolu mühümdür. İlk növbədə müəllim humanist olmalıdır. Humanistlik müəllim peşəsinin mahiyyətində, onun daxilində olan bir xüsusiyyətdir. Müəllimin peşə fəaliyyəti uşaqların şəxsiyyət kimi formalaşdırılması ilə xarakterizə olunduğundan şəxsiyyətə şəxsiyyət kimi yanaşmaq tələb olunur. Müəllimin əsas vəzifəsi şagirdlərə mənəvi keyfiyyətlər aşılamaqdır. Şagirdlərin bir şəxsiyyət kimi formalaşmasında mənəvi keyfiyyətlərin rolu böyükdür. Müəllim özü də nümunə olmalıdır. Onları gələcəyin böyük şəxsiyyətləri kimi görmək, şəxsiyyətlərinə hörmət etmək, tərbiyələrinə humanist mövqedən yanaşmaq müəllimin özünə də böyük hörmət qazandırır. Bu keyfiyyətlərlə müəllimin ixtisas bilikləri üst-üstə düşdükdə müəllim əsl müəllim kimi özü də hörmət qazanmış olur.

3) Müəllimin yaradıcı pedaqoji təfəkkürə malik olması və pedaqoji yaradıcılıqla məşğul olması. Müasir dövrdə təhsilin sürətlə inkişafı, aparılan islahatlar müəllimdən yeni pedaqoji təfəkkürə malik olmaq və təkcə mövcud olanlarla kifayətlənmək deyil, pedaqoji yaradıcılığa meylli olmaq və onunla məşğul olmağı tələb edir. Yaradıcı pedaqoji təfəkkür müəllimin yeniliklər üzərində düşünməsi, pedaqoji prosesi özünün yenilikləri, yaradıcı münasibətilə daha da məzmunlu və maraqlı etməsi üçün fikirləşməsi, yeni-yeni yollar üzərində düşünməsidir. Yaradıcı pedaqoji təfəkkür müəllimi öz fəaliyyətində daim yeniliklər etməyi bacarmalı, nail olduqları ilə kifayətlənməməli, daha da yaxşı işləməli pedaqoji yaradıcılıqla məşğul olmalıdır. Müəllimin pedaqoji yaradıcılıqla məşğul olması, yenilikləri axtarması, izləməsi, öz fəaliyyətində daha səmərəli əlverişli hesab etdiyi metodlar axtarıb tapması, tətbiq etməsi onu yaradıcı müəllim səviyyəsinə qaldırır. Müəllim yaradıcı müəllim kimi öz fikirlərini həm də həmkarları ilə paylaşır, onlara metodik kömək göstərir. Yaradıcı pedaqoji təfəkkür müəllimi daim yeniliklər axtarışına çıxarır, onu öz pedaqoji fəaliyyətini və təcrübəsini daha da formalaşdırır və onu peşəkar pedaqoq səviyyəsinə qaldırır.

4) Müəllimin yeni pedaqoji texnologiyaları və texnikanı mənimsəməsi və onları pedaqoji fəaliyyətində tətbiq edə bilməsi. Müəllim hər zaman yenilikləri izləməlidir çünki müasir dövr bunu tələb edir və bu müəllimin peşəkarlığında mühüm yer alır. Müasir məktəb üçün yüksək hazırlıqlı müəllim idealdır. Nə müasir məktəbi yeni informasiya texnologiyalarsız, nə də müasir müəllimi onlardan yüksək səviyyədə istifadə etmək bacarıqlarsız təsəvvür etmək mümkün deyildir. Bu amil müəllim peşəkarlığını və səriştəliliyini şərtləndirən bacarıqlar kimi həm müəllim hazırlığında, həm də müəllimin peşəkar fəaliyyətində önəmli məsələlərdən birinə çevrilmişdir. Müəllimin pedaqoji peşə mədəniyyətinin formalaşması yollarının çoxluğu ona

yiyələnməyin hərtərəfli şəkildə olmasına geniş imkan yaradır. Müəllim peşəsinə, ixtisasına dair hər gün yeni biliklər öyrənməklə, müəyyən bacarıqlara yiyələnməklə onların səmərəli tətbiqini, onlardan faydalanmağı daha geniş arenaya çıxarır.

Nəzərə almaq vacibdir ki, bütün yollar müəllimlərin öz peşəsini, ixtisasını sevməsində və peşəsinin zirvəsinə ucalmaq üçün yorulmadan çalışmasından başlanır. Bu yolu özünə seçə bilən, hədəfə çatmaq üçün yorulmadan fəaliyyət göstərən müəllimlər təkcə bir müəllim kimi özünün deyil, müəllimlik peşəsinin də nüfuzunun qaldırılmasına səbəb olur, uşaqlarda bu peşəyə maraq, həvəs formalaşdırmış olur.

**Məqalənin aktuallığı.** Bu gün respublikamızda hərtərəfli hazırlığa, yüksək peşə keyfiyyətlərinə malik, öz əməyini və həyatını gənc nəslin düzgün formalaşmasına, müstəqil dövlətimizin əsl vətəndaşı kimi tərbiyə olunmasına həsr edən müəllimlərə daha çox ehtiyac duyulur. Bunu həm cəmiyyətimizin gələcək inkişafı, həm də məktəbimizin, təlim-tərbiyə prosesinin müasir inkişaf səviyyəsi tələb edir. Buna görə də ali pedaqoji məktəblərdə gələcək müəllimlərlə aparılan hazırlıq işlərinin təkmilləşdirilməsinə, tələbələrdə peşə keyfiyyətlərinin formalaşması probleminin yeni, müasir dövrün tələblərinə uyğun şəkildə tədqiq edilməsinə ciddi ehtiyac vardır.

**Məqalənin elmi yeniliyi.** Pedaqoji peşə mədəniyyətinin mahiyyəti, məzmunu və ona yiyələnilməsi yollarının müəllimlərin peşə səriştəliliyi və peşəkarlığı ilə bir vəhdətdə götürülür, pedaqoji peşə mədəniyyətinə yiyələnmə müəllim nüfuzunun yüksəlməsinə təsir edir və tələbələrdə peşə mədəniyyətinin formalaşdırılmasının pedaqoji peşəyönümü üçün əlverişli olmasına şərait yaradır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatın nəticələri, müəyyənləşdirilmiş peşə keyfiyyətləri pedaqoji təmayüllü ali məktəblərin professor-müəllim heyətinə, əlaqədar şəxs və təşkilatlara, müasir dövrün tələblərinə cavab verən müəllim kadrlarının hazırlanmasında, onlarda yüksək pedaqoji peşə mədəniyyətinin formalaşmasında bilavasitə kömək edəcək, onlara yardımçı olacaqdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəz., 2013, 25 oktyabr.
2. Əliyev V. Müəllim hazırlığı prosesində peşə keyfiyyətlərinin formalaşdırılması yolları. Bakı, 2010.
3. H. Əliyev Pedaqoji ustalığın əsasları. Bakı: ADPU-nun nəşri, 1999.
4. Heydər Əliyev: Təhsil. Bilik. Kitab. Bakı: Müəllim, 2006.
5. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı: Nasir, 2007.
6. İlyasov M. Müəllimin pedaqoji ustalığı. Bakı, 2013.
7. İlyasov M.İ.Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri: Monoqrafiya. Bakı: Elm və təhsil, 2018.
8. Məmmədzadə R. Müəllimin peşə etikası. Bakı: Maarif 1992.
9. R. Əliyev. Psixologiya. Bakı: Nurlan, 2007.
10. R. Məmmədzadə və b. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı: Müəllim, 2008.

**К.Ф. Гудратли**

# Пути и средства формирования педагогической профессиональной культуры учителей начальных классов

## Резюме

Сегодня в нашей стране существует большая потребность в учителях с разносторонней подготовкой, высокими профессиональными качествами, которые посвящают свой труд и жизнь правильному формированию подрастающего поколения, чтобы получить образование настоящих граждан нашего независимого государства. Поэтому существует серьезная необходимость в улучшении подготовительной работы с будущими учителями в высших педагогических школах, изучении проблемы формирования профессиональных качеств у студентов в соответствии с требованиями новой, современной эпохи.

Результаты исследования исследуемых в статье выявленных профессиональных качеств напрямую помогут педагогическому коллективу педагогических вузов, профильным лицам и организациям, подготовке учителей, отвечающих требованиям современности, формированию высокой педагогической профессиональной культуры.

**K.F. Gudratli**

# Ways and means of forming the pedagogical professional culture of primary school teachers

## Summary

Today, there is a great need in our country for teachers with comprehensive training, high professional qualities, who dedicate their work and life to the proper formation of the young generation, to be educated as true citizens of our independent state. Therefore, there is a serious need to improve the preparatory work with future teachers in higher pedagogical schools, to study the problem of formation of professional qualities in students in accordance with the requirements of the new, modern era.

The results of the research researched in the article, the identified professional qualities will directly help the teaching staff of pedagogical universities, relevant persons and organizations, the training of teachers meeting the requirements of modern times, the formation of a high pedagogical professional culture.

**Redaksiyaya daxil olub:** 09.03.2021